# Azərbaycan idmanının şöhrəti ildən-ilə artır

**Son illər ölkəmizin iqtisadi qüdrətinin artması idman sahəsinə də öz müsbət təsirini göstərir. Müstəqil respublikamızda bütün sahələrdə olduğu kimi, idmanın inkişafı da ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Gəncliyə və idmana böyük inam və ümid bəsləyən ulu öndər deyirdi: "Bütün Azərbaycan gənclərinin qarşısında bir vəzifə — öz xalqına, dövlətinə, ölkəsinə ləyaqətlə xidmət etmək, həyatda fəal olmaq və Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq vəzifəsi durur".**



1993-cü ilin 15 iyununda xalqın çağırışına səs verərək ikinci dəfə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin xüsusi diqqət və qayğısı sayəsində başqa sahələrdə də olduğu kimi, bədən tərbiyəsi və idman sahəsində də ciddi dönüş yaradıldı.

Bu sahədə ciddi tədbirlər həyata keçirən ulu öndər Heydər Əliyev gənclərlə və idmançılarla işi daha səmərəli şəkildə təşkil etmək, onların problemləri ilə yaxından tanış olmaq, gənclərin ictimai-siyasi həyatda daha fəal iştirakını təmin etmək məqsədilə Gənclər və İdman Nazirliyinin yaradılması barədə sərəncam imzaladı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 179 saylı fərmanına əsasən 1994-cü ildə ölkənin gənclər və idman həyatını özündə cəm edən Respublika Gənclər və İdman Nazirliyi, 1995-ci il fərmanı ilə isə Azərbaycanda İdman Fondu yaradıldı.

14 avqust 1996-cı ildə Milli Olimpiya Komitəsinin üzvləri ilə görüşdə ulu öndər demişdir: "Şəxsən mən söz vermişəm ki, idmana xüsusi qayğını öz üzərimə götürmüşəm. Əmin ola bilərsiniz ki, bu qayğını daim hiss edəcəksiniz".

Ümummilli lider tərəfindən deyilən bu fikirlər Azərbaycan idmanının inkişafı istiqamətində əyani sübut oldu.

Heydər Əliyev məktəbinin layiqli davamçısı, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev 1997-ci il iyul ayının 31-də Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra Azərbaycan idmanı yeni bir mərhələyə qədəm qoydu. İdmanda gedən inkişaf, idmançıların qələbələri, Avropa və dünya çempionatlarının ölkəmizdə təşkili dövlətin idmana olan qayğısının bariz nümunəsidir. Əbəs yerə deyildir, 18 ildir Milli Olimpiya Komitəsinin prezidenti olan ölkə başçımız cənab İlham Əliyev Azərbaycanı idman ölkəsi adlandırır. Hər il ölkə Prezidenti tərəfindən idman ictimaiyyətini sevindirən sərəncamlar imzalanır, qələbələrin cavabı olaraq isə idmançılar fəxri ad və digər dövlət mükafatları ilə təltif olunur.

Əvvəlki illərdə olduğu kimi, bütövlükdə 2014-cü il də ölkə iqtisadiyyatı üçün uğurlu olmuşdur. Eyni zamanda Azərbaycanın beynəlxalq mövqeləri daha da möhkəmlənmiş, bütün çətinliklərə, dünyada və bölgədə yaşanan böhranlı vəziyyətə baxmayaraq, ölkəmiz inamla inkişaf etməkdədir. Ötən ilin əvvəlində qarşıya qoyulan bütün vəzifələr hər sahədə icra edilmiş və 2014-cü il yaxşı nəticələrlə yekunlaşmışdır. O cümlədən, ötən il idman sahəsində də gözəl nəticələr qazanılmışdır. İldən-ilə daha çox medal əldə edən idmançılarımız ötən ili də yüksək nailiyyətlərlə başa vurmuşlar.

İdmanla məşğul olan bütün qurumlar — Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, cəmiyyətlər, klublar fəal işləyirlər. Azərbaycanın iqtisadi qüdrəti artdıqca, idmana da dövlət səviyyəsində qayğı daha da gücləndirilir.

2014-cü ildə federasiyalarla və idmanla bağlı olan qurumlarla birlikdə ölkəmizdə 300-dən çox respublika miqyaslı 55 beynəlxalq yarış keçirilib. Xarici ölkələrdə baş tutmuş 320 beynəlxalq yarışda idmançılarımızın iştirakı təmin olunub. 2014-cü il ərzində olimpiya və qeyri-olimpiya növləri üzrə rəsmi beynəlxalq yarışlarda — dünya və Avropa çempionatlarında, kubok yarışlarında 275 qızıl, 255 gümüş və 275 bürünc, ümumilikdə 805 medal əldə edilib. Bunlardan 278-i (89 qızıl, 80 gümüş, 109 bürünc) olimpiya, 527-si (186 qızıl, 175 gümüş, 166 bürünc) qeyri-olimpiya idman növlərindən olub. İdman növləri üzrə yığma komandalarımız hər biri 12 gündən az olmayaraq 160 təlim-məşq toplantısında (115-i Azərbaycanda, 45-i xarici ölkələrdə) iştirak edib. 2013-cü ilə nisbətən medalların sayı xeyli artıb.

Qeyd edək ki, "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu ilk dəfə olaraq 1997-ci ildə qəbul olunmuşdur.

30 iyun 2009-cu ildə isə "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının yeni Qanunu Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmışdır ki, onun da icrasının təmin edilməsi aidiyyəti qurumlara tapşırılmışdır. Ötən müddət ərzində isə bu qanuna bir sıra əlavə və dəyişikliklər edilmişdir.

23 illik müstəqillik dövründə 40-dan çox Olimpiya İdman Kompleksi inşa edilmiş, 9 kompleksin tikintisi davam edir. Həmçinin MDB ölkələrində analoqu olmayan "Kür" Olimpiya Tədris-İdman Mərkəzinin mövcudluğu Azərbaycanın nəinki Avropa və dünya çempionatlarının təşkili, hətta Olimpiya oyunlarının respublikamızda keçirilməsinə təkan verir.

2004-cü il mart ayının əvvəlində Prezident İlham Əliyev tərəfindən imzalanmış "Bədən tərbiyəsi və idman günü"nün təsis edilməsi haqqında sərəncam "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adının təsis edilməsi haqqında fərman ümummilli liderin bu sahədə kursunun davam etdirilməsinin dövlət başçısı tərəfindən əyani təzahürüdür. Həmçinin bu sərəncam və fərman ölkə rəhbərinin idmana, idmançılara, bu sahədə çalışan mütəxəssislərə göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Həmin vaxtdan etibarən hər il 5 mart idmançıların peşə bayramı kimi qeyd olunur. Bu tarix təsadüfi seçilməmiş və əlamətdar bir hadisə ilə bağlıdır. Belə ki, bütün siyasi fəaliyyəti dövründə millətin sağlamlığına, idmanın inkişafına daim diqqət yetirmiş böyük öndər Heydər Əliyev 1995-ci il martın 5-də ölkəmizin tanınmış idmançıları və idman mütəxəssisləri ilə görüşmüşdür. Həmin görüşdə ilk dəfə bir qrup idmançı və məşqçi "Şöhrət" ordeni və "Tərəqqi" medalı ilə təltif edilmişdir. Bu ənənə hazırda möhtərəm Prezidentimiz tərəfindən davam etdirilir və hər ilin sonunda idman sahəsində fərqlənənlərin təltif edilmə mərasimi keçirilir.

2014-cü il dekabrın 22-də Milli Olimpiya Komitəsində 2014-cü ilin idman yekunlarına həsr olunmuş mərasim keçirilmişdir. Mərasimdə iştirak edən dövlət başçısı, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim etmişdir. Belə ki, müxtəlif beynəlxalq yarışlarda fərqlənən, ölkəmizdə idmanın inkişafına töhfə verən bir qrup idmançı və idman mütəxəssisinə yeni mənzillərin orderləri təqdim olunmuş, idmanda yüksək nailiyyətlər göstərən Elsevər Quliyev, Elvin Əhmədli, Əkbər Cəfərov və Cəsarət Əhmədov MOK-un prezidentinin fərxi fərmanları ilə təltif edilmiş, respublikamızda idmanın inkişafında xidmətləri olan Rafiq Həsənova və Məmməd Useynova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında sənədlər təqdim olunmuş, bədən tərbiyəsi və idmanın inkişafında olan xidmətlərinə görə Maqomed Aliomarova, Vaqif Cəfərova, Musa Həsənova və Çingiz İsmayılova "Əməkdar bədən tərbiyəsi və idman xadimi", Akif Atakişiyevə və Şəmsəddin Şahbazova isə "Əməkdar müəllim" fəxri adlarının döş nişanları təqdim olunmuşdur.

Dekabrın 24-də isə "Buta Palace"da keçirilən mərasimdə Gənclər və İdman Nazirliyi 2014-cü ildə fərqlənən idmançılara, məşqçilərə və komandalara mükafatlar təqdim etmişdir. Voleybol üzrə Azərbaycan millisi ilin ən yaxşı yığma, "Qarabağ" futbol klubu isə ilin ən yaxşı futbol komandası elan olunmuşdur. Həmçinin həmin tədbirdə sərbəst güləşçilər Hacı Əliyev və Xetaq Qazyumov, qadın güləşçi Mariya Stadnik, boksçu Yelena Vıstropova, kikboksçu Eduard Məmmədov, gimnast Mariya Durunda, taekvandoçu Radik İsayev, karateçi Fərid Mayılov, yunan-Roma güləşçisi Rəsul Cunayev, cüdoçu Elmar Qasımov mükafatlandırılmışlar.

Onu da qeyd edim ki, Gənclər və İdman naziri Azad Rəhimov isə idman jurnalistləri arasında keçirilən sorğu nəticəsində "2014-cü ilin idman xadimi" mükafatına layiq görülmüşdür.

2014-cü il ölkəmizdə bir sıra idman hadisələri ilə də zəngin olmuşdur. Əlamətdar haldır ki, ötən il iyulun 14-28 tarixlərində Çin Xalq Respublikasının Nanjinq şəhərində keçirilmiş Yeniyetmələrin İkinci Olimpiya Oyunlarında idmançılarımız 5 qızıl, 6 gümüş və 1 bürünc medalla 204 ölkə arasında 10-cu yeri tutaraq tarixi qələbəyə imza atmışlar. Bu nəticə ilə komandamız Avropa ölkələri arasında 6-cı, MDB ölkələri arasında 3-ü, İslam ölkələri arasında isə 1-ci yerdə olmuşdur. Bundan başqa, Bakı şəhərində Azərbaycanın beynəlxalq aləmdə təbliği baxımından mühüm əhəmiyyət kəsb edən və 100-dən çox ölkənin nümayəndələrinin iştirakı ilə Dünya İdman Mətbuat Assosiasiyasının (AİPS) 77-ci konqresi, 38 ölkədən 700-ə yaxın idmançının iştirakı ilə atletika üzrə Avropa Təsnifat Turniri, 33 ölkənin 500-dən çox gimnast və rəsmi nümayəndə heyətinin iştirakı ilə bədii gimnastika üzrə 30-cu Avropa Çempionatı və digər tədbirlər keçirilmişdir.

2015-ci ildə Azərbaycanda bir sıra idman tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Bu sırada İlk Avropa Oyunlarını, Şahmat üzrə Dünya Kubokunu göstərmək olar. Eyni zamanda 2016-cı ildə keçiriləcək Ümumdünya Şahmat Olimpiadasına, 2017-ci ildə keçiriləcək IV İslam Həmrəyliyi Oyunlarına, Gənclərin Olimpiya Həftəsinə ciddi hazırlıq işləri görülür. Bununla yanaşı lisenziya turnirlərinin keçirilməsi, dünya və Avropa çempionatlarının baş tutması üçün güclü idman infrastrukturu yaradılır.

Məsələn, İlk Avropa Oyunları ilə əlaqədar çimərlik voleybolu, çimərlik futbolu, su polosu idman növləri üzrə yarışların keçiriləcəyi Avropa Oyunları Parkının, Su İdmanı Sarayının, 65000 tamaşaçı tutumu olan futbol stadionunun, velosiped veloparkının tikintisi, stend atıcılığı üzrə idman kompleksinin yenidən qurulması, Heydər Əliyev adına İdman Konsert Kompleksinin, Bakı İdman Sarayının əsaslı təmiri və digər obyektlərdə müvəqqəti qurğuların tikintisində son tamamlanma işləri aparılır.

Ümumiyyətlə, 2015-ci və qarşıdakı illərdə bütün çempionat və yarışların dünya standartlarına uyğun keçirilməsi üçün Azərbaycan böyük potensiala malikdir.

Ötən il idman sahəsində əldə olunan nəticələrin statistikası onu deməyə əsas verir ki, Azərbaycan idmanının şöhrəti ildən-ilə artır. Bu nailiyyətlər həm də 2015-ci ildə yeni uğurlara imza atılacağının əsas göstəricisidir.

Tam əminliklə deyə bilərəm ki, Azərbaycan idmançıları dövlət başçımızın onlara göstərdiyi diqqət və qayğıya görə idmanda qazandıqları uğurlarla cavab verəcəklər. Bədən Tərbiyəsi və İdman Günü münasibətilə idmançıları, bu sahədə çalışan mütəxəssisləri və bütün idman ictimaiyyətini təbrik edir, Azərbaycan idmanının inkişafı istiqamətindəki fəaliyyətlərində uğurlar arzulayıram.

**İsmayıl İSMAYILOV,**
**Gənclər və idman nazirinin müavini.**